# Nəsiminin ideyaları və əsərləri türk dünyasında birləşdirici rol oynayıb

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ICESCO-nun tərəfdaşlığı ilə keçirilən 3-cü Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı çərçivəsində təşkil olunan "Əbədi həqiqət axtarışında" mövzusunda beynəlxalq forum işini panel sessiyalarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyinin direktoru, professor və AMEA-nın həqiqi üzvü Rafael Hüseynovun moderatorluğu ilə keçirilən "İradə azadlığı və ümumbəşəri ideallar uğrunda mübarizliyin Nəsimi modeli" mövzusunda panel sessiyada Pakistan, Böyük Britaniya, Özbəkistan, Türkiyə, İraq, İrandan olan alim, professor və ziyalılar Nəsimi irsi ətrafında geniş müzakirələr aparıblar.

"Sabit çağırışlar: dəyişən epoxalar və fərqli mədəniyyətlərin bənzər Nəsimiləri", "Seyid İmadəddin Nəsimi və Əllamə Məhəmməd İqbal poeziyasında eşq və məhəbbət fəlsəfəsi", "Osmanlı və Səfəvi sərhədində Nəsimi", "İmadəddin Nəsimi şeirində kamil insan konsepsiyası", "Nəsimi ruhu Osmanlı sarayında: Fateh və Sultan Süleymanın Nəsimi şeirlərinə nəzirələri", "Şair İmadəddin Nəsimi: Türk dünyasının ortaq dəyəri" və "Bəşər vasitəsilə transsendensiya: Nəsimi və Sultan Bahunun kamil insan fəlsəfəsinin müqayisəli tədqiqi" mövzularında çıxış edən iştirakçılar Nəsiminin mədəniyyətlərarası təsirini, Osmanlı və Səfəvi dünyasında əksini və türk dünyasında ortaq dəyər kimi rolunu vurğulayıblar.

Eyni zamanda paneldə Nəsiminin poeziyasının yalnız ədəbi qiyməti deyil, həm də mənəvi və etik dəyərlərin təbliği baxımından önəmi qeyd edilib. İştirakçılar həmçinin şairin sözlərinin insanı daxili azadlığına, bəşəri prinsiplərə və əxlaqi dəyərlərə səslədiyini, onun ideyalarının gənc nəsillərə ilham verdiyini diqqətə çatdırıblar.

Pakistanın MUSLIM İnstitutunda Sultan Bahu Araşdırma Mərkəzinin rəhbəri






Məhəmməd Əzim AZƏRTAC-a açıqlamasında bildirib ki, Nəsiminin mesajı sevgi, sülh və həmrəylik üzərində qurulub. O qeyd edib ki, bu dəyərlər müasir dünyamızda hər zamankından daha vacibdir.

M.Əzim həmçinin əlavə edib: "Bu festival yalnız böyük mədəni təcrübə deyil, həm də Azərbaycanın universal dəyərləri qorumaq və təşviq etmək yolunda liderliyini göstərən gözəl nümunədir".

"Türkmən əli" qəzetinin və "Türkmən əli" ədəbiyyat və incəsənət jurnalının sədri və baş redaktoru Necat Kevseroğlu deyib ki, Nəsimi yalnız ədəbiyyat sahəsində deyil, bütün türk dünyasının fəlsəfi, humanist və mədəni irsini zənginləşdirən bir şəxsiyyətdir. N.Kevseroğlunun fikrincə, şairin ideyaları və yaradıcılığı türk dünyasında birləşdirici rol oynamış, milli və bəşəri dəyərlərin qorunmasında mühüm nümunəyə çevrilmişdir.

Azərbaycan.- 2025.- 24 sentyabr (№204).- S.5.